

**Nərminə FAZİLOVA**
*BDU-nun filologiya fakültəsinin*
*üçüncü kurs tələbəsi*

## SİZ TƏRƏFDƏN BİZ TƏRƏFƏ...

Külək əsir
siz tərəfdən biz tərəfə,
soyuqdur...
Əziyyətdən keçib,
bəlkə, durub
möhkəm-möhkəm örtəsən
pərdəsiz pəncərəni,
süzəsən əllərini,
bir sığal da çəkəsən barmaqların üstünə...
Çəkmişkən o sığaldan
birini də çəkəsən
dağınıq saçlarına...
Oturasan yenə də ogünkü qamətinlə
piano qarşısında,
çalasan, çalasan...

Darıxmaq ətri gəlir
siz tərəfdən biz tərəfə...
Anan yemək bişirir,
ədviyyat əvəzinə
darıxmaq ətri gəlir
o balaca qazandan...
Yeyənlər də darıxır
kimlərdənsə ötəri...

Darıxıb atan gəlir
nahar edəndən sonra
siz tərəfdən biz tərəfə...
Gözucu nəzər salıram pəncərəmdən:
əlləri cibindədir, papağı da başında...
Qısılıb paltosuna yeriyir asta-asta...
İstəyirəm,
qaldırıb başını
görsün məni,
desin ata nəvazişiylə:
"qızım, döz, azca qalıb..."
Sonra da təbəssümə
bürüyüb sözlərini
getsin düz siz tərəfə...

Qapıdan girib səni
piano qarşısında
ogünkü qamətinlə
oturub çalan görsün...
Sığal çəksin əvəzimdən
saçlarına astaca...

Bir qız, bir oğlan uşağı
qaçır indi
biz tərəfdən siz tərəfə...

Barmaqların da qəfildən
qalxıb o isti dillərdən
dəyir üzünə oğlanın,
saçını oxşayır qızın...
Öpür dodaqların sənin
o yanağı, bu yanağı...
Qalxıb yerindən tutursan
balaca, pambıq əllərdən...
O zərif ayaqlar səni
gətirir indi qaçaraq
siz tərəfdən biz tərəfə...

Ogünkü qamətinlə
dayanırsan qarşımda,
deyirəm, yol hayanadır?..
Cavabında deyirsən ki,
siz tərəfdən biz tərəfə...